

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 180 (23.091)

*22 sentyabr 2018-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Sentyabrın 21-də Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclas keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xaricdən dəvət olunmuş çoxsaylı qonaqlar iclasda iştirak ediblər.

Dövlətimizin başçısı iclasda nitq söyləyib.

Prezident İlham Əliyev Azərbaycan parlamentinin yaradılmasının 100 illiyi münasibətilə təbriklərini çatdırıb. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını tarixi hadisə adlandıran dövlətimizin başçısı xalqımızın Şərqdə ilk demokratik respublikanın yaradılması ilə fəxr etdiyini bildirib. Cümhuriyyət dövründə bir sıra dövlət atributlarının təsis edildiyini deyən Prezident İlham Əliyev Azərbaycan dövlətinin Cümhuriyyətin və onun qurucularının fəaliyyətini yüksək qiymətləndirdiyini vurğulayıb, bu il “Cümhuriyyət İli” çərçivəsində dövlət səviyyəsində bir sıra tədbirlərin keçirildiyini diqqətə çatdırıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırımla görüşüb.

* * *

Bakıda, Milli Gimnastika Arenasında cüdo üzrə dünya çempionatının təntənəli açılış mərasimi keçirilib.



# Naxçıvanda yeni Asfalt-Beton Zavod Kompleksi istifadəyə verilmişdir

Sentyabrın 21-də Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin yeni Asfalt-Beton Zavod Kompleksi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin direktoru Bəhruz Əsgərov çıxış edərək demişdir ki, muxtar respublikada aparılan geniş tikinti-quruculuq işləri yol təsərrüfatını da əhatə etmişdir. Müasir avadanlıqlarla təmin olunmuş yeni asfalt-beton zavodlarının, qum-çınqıl karxanaları və bitum anbarlarının istifadəyə verilməsi, yeni texnikaların alınması yol tikintisinin əhatə dairəsini xeyli genişləndirmişdir. Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin maddi-texniki bazası möhkəmləndirilmiş, istehsal olunan asfaltın vaxtında yerlərə çatdırılması və asfalt-beton örtüyünün keyfiyyətlə salınması üçün yeni mexanizmlər alınmışdır. Yol infrastrukturu müasirləşdirilərkən diqqətdə saxlanılan əsas məsələlərdən biri də yerli tikinti materialları, xüsusilə də keyfiyyətli asfalt istehsalına nail olmaqdır. Yeni asfalt-beton zavodun istifadəyə verilməsi də məhz bu sahədə görülən işlərin davamıdır. Bəhruz Əsgərov yaradılan şəraitə görə muxtar respublikanın yol təsərrüfatı işçiləri adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikada yeni Asfalt-Beton Zavod Kompleksinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş, təşkilatçılara və əməyi olanlara təşəkkürünü bildirərək demişdir: Ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar bütün sahələrdə inkişafı təmin etmiş, əhalinin yaşayış səviyyəsi yaxşılaşmışdır. Bu gün Azərbaycan tranzit yükdaşımalar və turizm ölkəsinə çevrilmişdir. Bütün bunların əsasında isə hərtərəfli inkişafla yanaşı, həm də müasir yol infrastrukturu dayanır. Rahat və müasir yollar hər bir ölkənin tranzit keçid imkanlarını artırır. Eyni zamanda ölkənin yolları abaddırsa, o ölkəyə gələn qonaqların sayı da çox olur.

Ali Məclisin Sədri demişdir: Ölkəmiz inkişaf etdikcə əhalinin rifah halı da yaxşılaşır. İnsanlar rahat və müasir avtomobillər alır, bütün sahələr üzrə istifadə olunan maşınların sayı artır. Avtomobillərin rahat işləməsi və uzun müddət istismar olunması isə yolların abadlığından asılıdır. Yolların abad olması üçünsə, müasir asfalt zavodları istifadəyə verilməli, keyfiyyətli məhsul istehsal olunmalıdır. Bu gün istifadəyə verilən Asfalt-Beton Zavod Kompleksi də müasir tələblər səviyyəsində qurulmuşdur. Yeni texnologiyalarla təmin olunan və kompüter sistemi ilə idarə olunan zavodda keyfiyyətli asfalt istehsal olunacaqdır.

Ali Məclisin Sədri demişdir: Muxtar respublika ərazisində kifayət qədər daş və qum-çınqıl ehtiyatı vardır. Bu, keyfiyyətli asfalt istehsalında mühüm amildir. Yerli xammal əsasında işləyəcək asfalt-beton zavod muxtar respublikada yol tikintisinə böyük təkan verəcəkdir. Hər il muxtar respublikada 100 kilometrlərlə yeni avtomobil yolları çəkilir. Mərkəzi yollarla yanaşı, muxtar respublikanın şəhər, rayon və kəndlərini birləşdirən avtomobil yolları da yenidən qurulur, keyfiyyətli asfalt örtük salınır. Sentyabrın 15-də Şərur rayonunda Xanlıqlar-Vərməziyar-İbadulla-Qışlaqabbas-Ərəbyengicə kənd avtomobil yolu istifadəyə verildi. Hazırda Culfa-Ordubad magistral avtomobil yolu, Babək rayonunun Cəhri-Yuxarı Buzqov və Ordubad rayonunun Dəstə kənd avtomobil yolları yenidən qurulur. Yollarda işlərin keyfiyyətlə aparılması üçün müasir asfalt-beton zavodun qurulmasına ehtiyac yaranmışdı. Çünki əvvəlki illərdə quraşdırılmış zavod öz istismar müddətini başa vurduğundan keyfiyyətli asfalt istehsal olunmurdu. Lakin yeni asfalt-beton zavodun qurulması muxtar respublikada bundan sonra da keyfiyyətli yolların çəkilməsinə imkan verəcəkdir.



Ali Məclisin Sədri Asfalt-Beton Zavod Kompleksinin qurulmasında göstərdikləri köməkliyə görə qardaş Türkiyə Respublikasının “Texno Asfalt” və “Aymak” şirkətlərinin nümayəndələrinə təşəkkürünü bildirmiş, kollektivə işlərində uğurlar arzulamışdır.

Zavodda işlə təmin olunmuş gənc mütəxəssis Qənbər Əliyev minnətdarlıq edərək demişdir: Muxtar respublikada yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması gənc mütəxəssislərin işlə təminatında mühüm rol oynayır. Bu gün hər birimizin həyatında unudulmaz gündür. Çünki müasir şəraiti olan zavodda işlə təmin olunmuşuq. Fəaliyyətimiz üçün lazımi şərait yaradılıb. Çalışacağıq ki, qarşımıza qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gələk.

Türkiyənin “Texno Asfalt” şirkətinin servis müdiri Osman Şahin və satış müdiri Sultan Şahin əməkdaşlığa, fəaliyyətlərinə verilən qiymətə və göstərilən diqqətə görə minnətdarlıq etmişlər. Sultan Şahin demişdir ki, Azərbaycan-Türkiyə “Bir millət, iki dövlətdir”. Bu, əlaqələrin inkişafında özünü göstərir. Naxçıvanda yeni asfalt-beton zavodun qurulmasında Türkiyə şirkətlərinin iştirak etməsi də qarşılıqlı əməkdaşlığın nəticəsidir.





Sonra xatirə şəkli çəkdirilmişdir.

Ali Məclisin Sədri idarəetmə otağında zavodu işə salmışdır.

Məlumat verilmişdir ki, 3 hektar sahəni əhatə edən zavodda Almaniya istehsalı avadanlıqlar quraşdırılmışdır. İstehsal müəssisəsi asfalt istehsalı sahəsindən və qum-çınqıl karxanasından ibarətdir. Avtomatik idarə olunan zavodda istehsal olunan məhsullar öz keyfiyyəti ilə seçilir. Zavodda enerji sərfiyyatı istehsal olunan asfaltın miqdarına uyğun tənzimlənir və əlavə enerji itkisinə yol verilmir. “Benninghoven” markalı yeni asfalt-beton zavod saatda 240 ton asfalt-beton, ölçüsü 25

*Ardı 2-ci səhifədə*

millimetrədək olan 5 növdə 210-230 ton fraksiya istehsal etmək gücünə malikdir. Daşqırıcının istehsal gücü saatda 100-110 tondur. Zavodda tutumu 300 ton olan bitum ehtiyatı anbarı yaradılmış, hər birinin tutumu 50 ton olan 6 bitum çəni quraşdırılmışdır. 4 bitum çəninin quraşdırılması və əlavə 200 tonluq anbarın yaradılması istiqamətində isə işlər davam etdirilir.

Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında bağlanmış Qrant müqaviləsinə əsasən alınmış Çin istehsalı 1 “DONGFENG” markalı özüboşaldan yük maşını, 1 “XCMGXC-760K” markalı kiçikhəcmli yükləyici və Belarus istehsalı 1 “AMKODOR-342B” markalı irihəcmli yükləyici Naxçıvan Muxtar Respublikasının Avtomobil Yolları Dövlət Agentliyinə verilmişdir.

Ali Məclisin Sədri texnikaların açarlarını təqdim etmişdir.

Zavodun həyətində ehtiyat hissələri üçün anbar və yardımçı bina tikilib, avtomobil dayanacağı istifadəyə verilib. Yardımçı binada mətbəx-yeməkxana, çilingər və digər xidməti otaqlar vardır.

Zavodun kollektivi ilə görüşən Ali Məclisin Sədri demişdir: Burada rahat və sağlam iş şəraiti yaradılmışdır. Kollektiv yeni avadanlıqlardan istifadə qaydalarını öyrənməli, onlara vaxtında texniki qulluq göstərməli və keyfiyyətli məhsul istehsalına nail olmalıdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



***Doğma yurdumuz Naxçıvan müstəqillik illərində, sözün həqiqi mənasında, özünün yeni inkişaf mərhələsinə qədəm qoyub: insanların yaşayış səviyyəsi yüksəlib, həyata baxışları köklü surətdə dəyişib. Bu illər ərzində iqtisadiyyatımızın gücləndirilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər öz bəhrəsini verib və bu tədbirlər ardıcıl davam etdirilir. Sosial-iqtisadi inkişafımızı şərtləndirən amillər içərisində ən başlıcası muxtar respublikada böyük vüsət alan quruculuq işləridir. Heç bir fərq qoymadan bütün şəhər və kənd yaşayış məntəqələrində görülən bu işlər doğma yurdumuzun simasını əsaslı surətdə dəyişir. Belə yaşayış məntəqələrindən biri də müasirləşən İbadulla kəndidir.***

### Müasirləşən kəndlərimiz

## Gözəlliyə qovuşan məkan

# İbadulla



XIX əsrə aid mənbələrdə bu kəndin adı “Abadulla” kimi qeydə alınıb. Güman olunur ki, kəndin əvvəlki adı başqa imiş, yaxud yeni salınan kəndin əsası İbadulla adlı şəxs tərəfindən qoyulduğu və ya ona mənsub olduğu üçün kəndə bu ad verilib. Bununla yanaşı, belə qənaətə gəlinir ki, “Abadulla” adının “abad” hissəsi “abadlıq, abadanlıq”, “ulla” hissəsi isə “əla, ən uca”, “çox gözəl” mənalarında işlənərək adın mənasında “əla, abad yer”, “çox gözəl abad məkan” anlamı yaradıb.

...Neçə illərdir ki, muxtar respublikanı ağuşuna alan tikinti-quruculuq işlərini, müasirləşən kəndləri görəndə düşünürdüm ki, bizim kəndimiz nə vaxt müasirliyə qovuşacaq? Bu gün kəndimizdəyəm və onun simasının nə qədər dəyişildiyini görür, çox sevinirəm.

Kənddə baş çəkdiyimiz ilk ünvan üçmərtəbəli məktəb binasıdır. Giriş qapısının hər iki tərəfindəki qoşa sütunların arasından keçib üçmərtəbəli gözəl binanın içərisinə daxil oluruq. Binanın xarici görünüşünün yaratdığı xoş təəssürat anındaca birəbeş qat artır. Məktəbin direktoru Qurban Qurbanov deyir ki, 522 şagird yerlik məktəbdə 3-ü elektron lövhəli olmaqla, 31 sinif otağı, müəllimlər otağı, 2 kompüter, 2 şahmat, psixoloq otağı, idman zalı, idman qurğuları, fənn laboratoriyaları, hərbi kabinə lazımi avadanlıq və tədris vasitələri ilə təchiz edilib. Təhsil ocağının kitabxanasında 3211-i dərslik, 7016-sı bədii ədəbiyyat olmaqla, 10 min 227 kitab var. Direktor məktəbin məzunlarının builki qəbul imtahanlarında qazandığı uğurlar haqqında danışaraq bildirir ki, 2017-2018-ci tədris ilində məktəbi bitirənlərdən 11 nəfəri qəbul imtahanlarında iştirak edib. Onlardan 7-si 500-700 intervalında bal toplamaqla 9-u tələbə adını qazanıb. Doqquzillik bazadan 7 məzun orta ixtisas təhsili müəssisələrində oxumaq imkanı əldə edib. 4 şagird Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə, bir şagird isə Heydər Əliyev adına Hərbi Liseydə təhsillərini davam etdirirlər.

Təhsil ocağının təcrübəli müəllimlərindən olan Fəridə Əliyeva deyir ki, İbadulla məktəbi tarixən onun başını uca edən məzunları ilə fəxr edib. Həmin məzunlar arasında zəhmət adamları da olub, müxtəlif sahələr üzrə elmi dərəcələr almış alimlər də, gözəl qələm sahibləri də, həkim, mühəndis kimi bir çox sahələrdə çalışan insanlar da. Həmin ziyalıların adları bu gün də hörmətlə çəkilir, şagirdlərə nümunə göstərilir.

Bilik Günündə qapılarını müəllim və şagirdlərin üzünə açmış məktəb binasının istifadəyə verilməsi mərasimində iştirak edən Ali Məclisin Sədri cənab Vasif Talıbov kənd sakinlərini və məktəbin kollektivini təbrik edərək deyib: ***“İbadulla kənd tam orta məktəbinin nailiyyətləri həm kəmiyyət, həm də keyfiyyət baxımından qənaətləndiricidir. Bu, onu göstərir ki, məktəbdə müəllim tələbkarlığı və şagird çalışqanlığı vardır. Bu gün yeni məktəb binası istifadəyə verildi. Müəllimlərdən biri “Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi” fəxri adına layiq görüldü. Eyni zamanda məktəbin pedaqoji kollektivi valideynlər qarşısında hörmətə layiqdir. Çünki gənclərə yaxşı təhsil verilib, onlar ali və orta ixtisas məktəblərinə qəbul olunub, peşə məktəblərinə yönləndiriliblər. Bu gün qarşıda duran əsas vəzifə gəncləri həm təhsilli, həm də vətənpərvər böyütməkdir. Artıq İbadulla kənd tam orta məktəbinin timsalında deyə bilərik ki, muxtar respublikamızda təhsil sahəsindəki nailiyyətlər qənaətləndiricidir”.***

Həmin gün İbadulla Kənd Mərkəzinin də açılışı olub. Burada inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, statistika otağı, mədəniyyət evi, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, arxiv və 74 yerlik zal yerləşir.

Kənd mərkəzindəki kitabxana oxucu sayının artmasına imkan verib. Burada oxunması zəruri olan kitablardan ibarət guşə də yaradılıb. Kitabxanada 5063 ədəbiyyat vardır.

İbadulla poçt şöbəsinin müdiri Sabir Əsgərov deyir ki, hazırda kənddə 95 internet istifadəçisi vardır. Müasir şərait və yeni avadanlıqlar onların sayının artmasına səbəb olub. Yeni istifadəyə verilən rabitə evində quraşdırılan 512 yerlik yeni nəsil ATS İbadulla və Qışlaqabbas kəndlərində 425 abonentə xidmət edir. Biz də çalışırıq ki, yaradılan şəraitdən səmərəli istifadə edək, sakinlərə keyfiyyətli rabitə xidməti göstərək.

Kənd sakini Nadir Əliyev yaradılan şəraitdən razılıq edərək deyir:

– Əvvəllər kommunal xərcləri ödəmək üçün rayon mərkəzinə üz tuturduq. Artıq kənd camaatının adi bir məsələdən ötrü rayon mərkəzinə, şəhərə üz tutmaqdan yaxası qurtarıb. Bu xərcləri yerindəcə ödəyəcəyik ki, bu da işimizi asanlaşdıracaq, vaxtımıza qənaət olunacaq.

Tarixən insan sağlamlığı bəşər övladının ən ali arzularından biri olub və bu gün də elədir. Bu haqda söhbət gedəndə, ilk olaraq yadımıza səhiyyə ocaqları düşür. Son illərdə muxtar respublikada bu məqsədlə inşa olunan binalar, onların təcrübəli kadrlarla, müasir texnologiyalarla təmin edilməsi dövlətimizin insan amilinə diqqət və qayğısının ifadəsidir.

İbadulla kəndində də tibbi avadanlıqlarla təchiz edilmiş həkim ambulatoriyasının istifadəyə verilməsi kənd sakinlərinin sevincinə səbəb olub. Ambulatoriyanın baş həkimi İbrahim Həsənovla birgə burada tibbi xidmət üçün yaradılan şəraitlə tanış oluruq. 8 xidməti otaq, o cümlədən baş həkim, stomatoloq üçün kabinə, fizioterapevtik kabinə, doğuş, manipulyasiya-peyvənd, mama, qeydiyyat otağı və aptek vardır. Səhiyyə ocağı stomatoloji qurğu, doğuş masası, quruducu şkaf, mikroskop, sentrifuqa, hemometr, qlükometr və digər tibbi avadanlıqlarla, fizioterapevtik kabinə elektroterapiya və ultrasəslə müalicə aparatı, ultrayüksəktezlikli cərəyanla müalicə aparatı, parafinəritmə qazanı və solyuks lampası ilə təchiz edilib. Belə müasir tibbi avadanlıqlarla təchizat, kənd həkim ambulatoriyasında unikal şəraitin yaradılması bizi də qürurlandırır. Həkim ambulatoriyasında qeydiyyat elektron formada aparılır. Qeydiyyata alınan və müayinə olunan xəstələr haqqındakı məlumatlar, eyni zamanda rayonun səhiyyə informasiya sisteminə qoşulmuş kompüter vasitəsilə mərkəzə də ötürülür. Ambulatoriyada müayinəyə gələn kənd sakini Bahar Əzimova ilə həmsöhbət oluruq. Onun dedikləri:

– Sovetlər dönəmində kənd yerlərində bu cür gözəl, yaraşıqlı, lazımi avadanlıq və cihazlarla təchiz edilən tibb ocağı barədə danışmaq belə, olmazdı. Bu gün isə müstəqil dövlətimiz gücləndikcə kəndlərimizdə də səhiyyə ocaqlarımız üçün yeni binalar inşa olunur. Bu da əhalinin sağlamlığının qorunmasında, onlara tibbi xidmətin göstərilməsində böyük rol oynayır.

Həmin gün İbadulla sakinləri daha bir obyektin – xidmət mərkəzinin açılışının da sevincini yaşayıblar. Mərkəzdə bərbərxana, gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları, dərzi və iki anbar vardır. Burada xidmət sahələrinin fəaliyyəti üçün nümunəvi şərait yaradılıb. Mağazada diqqətimizi çəkən bir məqam da burada, əsasən, kənddəki ailə təsərrüfatlarının istehsal etdikləri məhsulların satılması oldu.

Onu da bildirək ki, həmin gün İbadulla Radio-Televiziya Verici Stansiyası da yeni binada fəaliyyətini davam etdirməyə başlayıb. Bu stansiya Şərur rayonunun bir sıra kəndlərindəki ötürücülərin fəaliyyətini gücləndirir.

Muxtar respublikamızda geniş vüsət almış quruculuq tədbirləri sırasında yeni yolların çəkilişi, körpülərin salınması da əhəmiyyətli yer tutur. Xüsusən də ucqar dağ və sərhəd yaşayış məntəqələrimizə gedən yollar bu gün öz rahatlığı ilə seçilir. Xanlıqlar-Vərməziyar-İbadulla-Qışlaqabbas-Ərəbyengicə kənd avtomobil yolunun istifadəyə verilməsi də kənd sakinlərinin böyük sevincinə səbəb olub. İndi bu yol da bölgənin ən yaxşı yollarından biri sayılır. Yol genişləndirilib, əsaslı şəkildə yenidən qurulub. İllərdir, sükan arxasında əyləşən İbadulla kənd sakini Qurban dayı göstərilən qayğıya görə minnətdarlıq edir və deyir ki, yolların belə abadlaşdırılması təqdirəlayiqdir. El arasında belə bir məsəl var: – Abad el yolundan bilinər. Bu gün biz kənd adamlarına yaradılan şərait şəhərdən seçilmir. Əvvəllər rayon mərkəzinə getmək üçün vaxt sərf edir, üstəlik, kələ-kötür yolda maşınlarımız da nasaz vəziyyətə düşürdü. İndi, şükür Allaha, yollarımız şüşə kimidir.

Kəndin qədirbilən insanları yaxşı başa düşürlər ki, torpağa bağlanmaq, onun qayğısını çəkmək xoş güzəranın təminatıdır. Ona görə də bu əvəzsiz nemətdən ikiəlli yapışıblar, onun qədrini bilir və bəhrəsini görürlər. Ümumi ərazisi 405 hektar olan bu yaşayış məntəqəsində 1664 sakin yaşayır və onlar 409 təsərrüfatda birləşiblər. Aqrar islahatlar zamanı əhalinin istifadəsinə 239 hektar torpaq sahəsi verilib, 157 hektar torpaq bələdiyyədə, 9 hektar dövlət mülkiyyətində saxlanılıb. Bu yaşayış məntəqəsində təsərrüfatın müxtəlif sahələri inkişaf etdirilir.

İnzibati ərazi dairəsi üzrə nümayəndə Parlar Əsgərov deyir ki, cari təsərrüfat ilində 75 hektar taxıl zəmisinin məhsulu biçilib, hektarın məhsuldarlığı 40 sentner olub. Kənddə 9 hektar sahədə kartof, 5,2 hektar sahədə tərəvəz, 1,9 hektar sahədə bostan məhsulları, 13 hektar sahədə qarğıdalı əkilib hasilə gətirilib.

İbadullada heyvandarlığın da inkişafı üçün geniş imkanlar mövcuddur. Bu amil də nəzərə alınaraq aqrar islahatlar vaxtı yaşayış məntəqəsində kifayət qədər biçənək və örüş sahəsi ayrılıb. Kənd sakinləri öhdələrində olan mal-heyvanın baş sayını ilbəil artırmaqla təsərrüfatlarını genişləndirirlər. Bol bərəkətli süfrələrindən heç vaxt təzə ət və süd məhsulları əskik olmayan bu zəhmət adamları daxili bazarın da həmin məhsullara tələbatının ödənilməsinə kömək edirlər.

Kənddə bir neçə ağsaqqal ilə həmsöhbət oluruq. Ömrünü torpağa bağlayan, onun səxavətini görən və bu hesaba özünə yaxşı gün-güzəran quran Arif Məmmədov fikirlərini belə ifadə edir:

– Aqrar islahatlar həyata keçirildikdən, torpaqlar camaata paylandıqdan sonra texnika, təsərrüfat suyu, keyfiyyətli toxum və təchizat məsələləri həll edilib, hər hektar taxıl sahəsi üçün dövlətdən pul yardımı və mineral gübrə alırıq. Odur ki, bu sahəyə marağımız ildən-ilə artır. Tədarük etdiyimiz məhsullar öz tələbatımızı ödəyir, qalanını isə satırıq.

91 yaşlı Həşim Məmmədov:

– Torpaq da canlıdır. O da qayğıya möhtacdır. Əgər torpağı öz dilində danışdıra bilsək, nazını çəkib qayğı göstərsək, onda istədiyimizi əldə edə bilərik. Bunun üçün də torpaq hər fəslə uyğun olaraq dilləndirilməli, tələb edilən təsərrüfat işləri vaxtlı-vaxtında görülməlidir. Bu gün dövlətimiz kəndliyə hər cür qayğı göstərir. Kəndlinin öhdəsinə düşən isə torpaqdan səmərəli istifadə etməkdir. İndi kənd adamlarının zəhmət çəkməsi, torpağa alın təri axıtması, ilk növbədə, özləri üçündür. Kim bunu dərindən dərk edirsə, yaxşı gün-güzəran qurmağı bacarır.

Məhəmməd Məmmədov, Fərəməz Əliyev və başqaları dövlətimiz tərəfindən kənd adamlarına göstərilən yüksək diqqət və qayğıdan ürəkdolusu danışdılar, bu yaşayış məntəqəsində həyata keçirilən kompleks quruculuq tədbirlərinə görə dövlətimizə minnətdarlıqlarını bildirdilər.

***İndi ilin elə vədəsidir ki, gün çıxandan hava qaralanadək kənd adamını evdə-eşikdə tapmaq çətin olar, hamı çöldə-bayırda öz işi ilə məşğuldur: kimisi həyətyanı sahəsində, pay torpaqlarında işləyir, başqa birisi əkib-becərdiyi sahələrin məhsulunu toplayır, digəri məhsulu yığılmış yerlərdə təkrar əkin keçirir. Torpaqla ünsiyyətdə olanların sevinci, fərəhi isə onunla bağlıdır ki, min bir zəhmətlə hasilə gətirilən məhsul həm gün-güzəranını yaxşılaşdırır, həm də daxili bazarın tələbatının ödənilməsinə öz töhfəsini verir.***

**Ramiyyə ƏKBƏROVA**

## Avropalı diplomatlar Naxçıvan şəhərinin tarixi abidələri ilə tanış olublar

***Muxtar respublikada keçiriləcək “Avropa günləri” çərçivəsində sentyabrın 21-də qədim diyara gələn Avropa İttifaqının rəsmiləri, Avropa ölkələrinin Azərbaycandakı səfirləri və digər qonaqlar Naxçıvan şəhərinin tarixi abidələri və mədəniyyət müəssisələri ilə tanış olublar.***

Qonaqlar əvvəlcə Naxçıvan Dövlət Xalça Muzeyinə gəliblər. Məlumat verilib ki, son illər muxtar respublikada xalçaçılıq sənətinin inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir, bu mədəni irsimizin qorunması və təbliği işinə diqqət artırılır. Görülən işlər milli xalçaçılıq sənətinin yaşadılmasına və bu sahə üzrə yeni elmi araşdırmaların aparılmasına stimul olub. 1998-ci ildə fəaliyyətə başlayan Naxçıvan Dövlət Xalça Muzeyi 2010-cu ildə yeni bina ilə təmin edilib, 2013-cü ildə isə muzeyin ekspozisiyası yenidən qurulub. Hazırda muzeydə 3000-dən çox eksponat var ki, bunlardan 300-ə yaxını ekspozisiyada nümayiş etdirilir.

Qonaqlar “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində də olublar. Xan sarayında bildirilib ki, bu muzey Naxçıvan xanlığının milli dövlətçiliyimizdəki rolu, Azərbaycanın bu ərazisindəki torpaqlarının qorunub saxlanılmasındakı xidmətləri nəzərə alınaraq yaradılıb. Hazırda 8 ekspozisiya zalından ibarət olan muzeydə 900-dən çox eksponat var.

Milli memarlığımızın möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən olan Möminə xatın türbəsi və açıq səma altında nümayiş etdirilən daş abidələr qonaqlarda böyük maraq oyadıb.

Naxçıvan Dövlət Rəsm Qalereyasına gələn qonaqlara bildirilib ki, 1982-ci ildə ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə yaradılmış qalereyada Azərbaycan, o cümlədən Naxçıvan, həmçinin Rusiya rəssamlarının 300-dən çox əsəri nümayiş etdirilir. Azərbaycan Xalq rəssamlarının əl işlərinin toplandığı ekspozisiya zalında yağlı boya ilə kətan üzərində işlənən “Ulu öndər”, “Zərifə Əliyeva”, “21-ci əsr – Heydər Əliyev” əsərləri ölkəmizin müasir tarixini göz önündə canlandırır.





Duzdağ Fizioterapiya Mərkəzi də qonaqların marağına səbəb olub.

Diplomatlar Naxçıvan Duz Muzeyini də ziyarət ediblər. Məlumat verilib ki, muzey ekspozisiya zalı və iş otaqlarından ibarətdir. Burada duzdan hazırlanmış müxtəlif fiqurlar, Naxçıvan Duzdağı haqqında nəşr olunmuş kitablar, Naxçıvan şəhəri, Nuh Peyğəmbər və Naxçıvan, Duzdağ mədəniyyəti və duz yataqları ilə bağlı qəzet materialları, “Duzdağ” sənədlər toplusu nümayiş etdirilir. Eyni zamanda ekspozisiyada ümummilli liderimiz Heydər Əliyevin “Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus rol oynayan Naxçıvanın hər daşı, hər qayası tarixin canlı şahididir” və ölkə Prezidenti İlham Əliyevin “Qədim Naxçıvanın ən möcüzəli yerlərindən biri olan Duzdağın hər qarışında tarixin sirli izləri qalıb” fikirləri yer alıb.

Qeyd olunub ki, muzeydəki daş alətlər, daş çəkic və çapacaqlar, duz torbaları, saxsıdan və gildən hazırlanmış duz qabları, daş həvəngdəstə və baltalar, duz kristalları, karsit və duz süxurları Naxçıvan Duzdağının qədim tarixini və mədəni potensialını özündə əks etdirir. Vaxtilə Duzdağ mədənində istifadə olunan və hazırda muzeydə nümayiş etdirilən bu alətlər Naxçıvanda sənətkarlıq ənənələrinin qədim dövrlərdən formalaşdığını göstərir.

Qonaqlar Azərbaycan Miniatür Kitab Muzeyinin Naxçıvan filialı ilə də tanış olublar.

Avropalı diplomatlar “Şərq qapısı” qəzetinə müsahibələrində Naxçıvanın tarixi abidələri və mədəniyyət müəssisələrinin onlarda zəngin təəssürat yaratdığını qeyd etdilər. Bu barədə söhbət etdiyimiz *Danimarkanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Svend Olling* dedi: – Bu, mənim Naxçıvan Muxtar Respublikasına ilk səfərimdir. Əvvəlcə onu qeyd edim ki, Naxçıvan şəhəri çox təmiz şəhərdir. Bu, Beynəlxalq Hava Limanından başlayaraq diqqətimi cəlb etdi.



Naxçıvan şəhərində ilk ziyarət etdiyimiz ünvan olan Xalça Muzeyindəki çoxsaylı qədim xalçaçılıq sənətinin bənzərsiz nümunələri də məndə xüsusi maraq oyatdı. Naxçıvanda qədim dövrlərdən yaradılan maddi-mədəni irs heyrətamizdir.

Etiraf edim ki, Naxçıvan barədə o qədər də məlumatlı deyildim. Ancaq Haçadağ, buradakı duz mədənləri və xalçaçılıq sənətinin inkişafı barədə ümumi məlumatlarım var idi. Naxçıvana gəldikdən sonra və tarixi abidələrlə tanış olduqca bu diyarın qədimliyi barədə məndə daha geniş təsəvvür yarandı. Çox sevindirici haldır ki, Naxçıvan Şərq və Qərb mədəniyyətlərinin qovuşduğu bir məkanda yerləşir.

*Çexiya Respublikasının Azərbaycandakı Səfirliyinin birinci katibi Daniel Putik* Azərbaycanın bölgələrinə ilk səfərinin qədim Naxçıvandan başladığını vurğulayaraq bildirdi ki, muxtar respublika ilə tanışlıqdan məmnundur: – Naxçıvan şəhəri ilk andan etibarən məndə böyük təəssüratlar yaratdı. İnanıram ki, önümüzdəki günlərdə təəssüratlarım daha da zənginləşəcək. Bu baxımdan Naxçıvan şəhərinin tarixi məkanları daha çox diqqətimi cəlb etdi. Xüsusən Xalça Muzeyi, Xan sarayı, Möminə xatın türbəsi, Duz Muzeyi və digər mədəniyyət müəssisələri Naxçıvanın qədim və zəngin tarixini əks etdirir. Xan sarayı bu diyarın siyasi tarixinin öyrənilməsi baxımından əhəmiyyətli bir məkanıdır. Burada biz Naxçıvan xanlığı, Kəngərli sülaləsi, Naxçıvanın dövlətçilik tarixi barədə maraqlı məlumatlar öyrəndik.



**Xəbərlər şöbəsi**

## Akademik Həsən Abdullayevin 100 illik yubileyinə həsr olunan elmi konfrans keçirilib



*AMEA Naxçıvan Bölməsində görkəmli alim və ictimai xadim, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, akademik Həsən Abdullayevin anadan olmasının 100 illiyinə həsr edilən elmi konfrans olub.*

Tədbir Naxçıvan Dövlət və “Naxçıvan” universitetləri, Naxçıvan Müəllimlər İnstitutunun birgə təşkilatçılığı ilə keçirilib.

Konfransda bölmənin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək bildirib ki, Prezident cənab İlham Əliyev “Akademik Həsən Abdullayevin 100 illik yubileyi haqqında” Sərəncam imzalayıb. Buna uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 27 iyul tarixli Sərəncamı ilə “Akademik Həsən Abdullayevin 100 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı” təsdiq olunub. Elmi konfrans da həmin sərəncama əsasən keçirilir.

“Görkəmli alim və elm təşkilatçısı” mövzusunda məruzə edən bölmə sədri Həsən Abdullayevin zəngin elmi fəaliyyətinə qısa nəzər salıb. Bildirilib ki, görkəmli alim Azərbaycanda müasir fizikanın, xüsusən yarımkeçiricilər fizikası və texnikasının bünövrəsini yaratmaqla bərabər, onun hərtərəfli inkişafının başlıca istiqamətlərini müəyyənləşdirib. O, yüksəkixtisaslı elmi kadrların hazırlanmasında böyük xidmətlər göstərib, Azərbaycanda yarımkeçiricilər fizikası üzrə elmi məktəb yaradıb. Akademik İsmayıl Hacıyev alimin uzun illər Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutuna rəhbərlik etdiyini diqqətə çatdırıb.

Qeyd olunub ki, ömrünün çoxunu yarımkeçiricilər fizikasına həsr edən Həsən Abdullayev15 monoqrafiyanın, 250-dən artıq ixtira, o cümlədən 500-dən çox elmi məqalənin müəllifi olub. O, ABŞ-da, Yaponiyada, Rusiyada və digər ölkələrdə keçirilən beynəlxalq konfranslarda ölkəmizi təmsil edib.

Diqqətə çatdırılıb ki, Həsən Abdullayev Elmlər Akademiyasının prezidenti kimi respublikada elmin təşkilinə mühüm töhfələr verib.

Bölmənin Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əliəddin Abbasovun “Akademik Həsən Abdullayev Azərbaycan elminin intibahı”, Batabat Astrofizika Rəsədxanasının direktoru, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Qulu Həziyevin “Azərbaycanda astronomiya elminin və seysmologiya mərkəzlərinin inkişafında akademik Həsən Abdullayevin rolu” və Naxçıvan Dövlət Universitetinin Ümumi və nəzəri fizika kafedrasının müdiri, dosent Fərman Qocayevin “Akademik Həsən Abdullayev Azərbaycanda yarımkeçiricilər fizikası məktəbinin banisidir” mövzusunda məruzələri dinlənilib. Çıxış edənlər Həsən Abdullayevin zəngin elmi fəaliyyətindən söz açıblar.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## İkigünlük təlim sona çatıb



***Sentyabrın 20-də “Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək” layihəsinin açılışı olub. Bununla əlaqədar Naxçıvan şəhərindəki “Təbriz” mehmanxanasında “Sərhəd-nəzarət məntəqələrində profilin yaradılması və şəxsiyyətin müəyyənləşdirilməsi” mövzusunda 2 günlük təlim keçirilib.***

Təlimdə Dövlət Sərhəd Xidmətinin və Dövlət Miqrasiya Xidmətinin əməkdaşları, Niderland və Çex Respublikasından gələn beynəlxalq ekspertlər iştirak ediblər.

Məlumat üçün bildirək ki, Avropa İttifaqı və Azərbaycan arasında imzalanmış Yerdəyişmə üzrə Tərəfdaşlıq çərçivəsində həyata keçirilən və Avropa İttifaqı tərəfindən maliyyələşdirilən layihənin məqsədi nizamlı miqrasiya idarəçiliyini gücləndirməklə yerdəyişmə üzrə tərəfdaşlığı imzalayan iştirakçı ölkələr arasında birbaşa mübadilə üçün möhkəm zəmin və real imkanlar yaratmaqdır. Həmçinin layihənin məqsədi həm də sərhəd-nəzarət məntəqələrində çalışan əməkdaşların yoxladıqları sənədlərin təhlükəsizliyi ilə bağlı bilik və bacarıqlarını təkmilləşdirməkdən ibarətdir.

Qeyd edək ki, təlim müddətində iştirakçılara nəzəri biliklərlə yanaşı, gündəlik praktikada tətbiq etmək üçün bəzi məsləhətlər və miqrasiya sahəsində çalışan əməkdaşların istifadəsi üçün nəzərdə tutulmuş lüğət verilib. Sonda təlim iştirakçılarına sertifikatlar təqdim olunub.

**Xəbərlər şöbəsi**

## Culfa rayonunda sığorta fəaliyyətinin təşkili müzakirə edilib

*Dünən Culfa Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta işinin təşkili və qarşıda duran vəzifələr barədə tədbir keçirilib.*

Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev tədbiri açaraq son dövrdə Culfada sığorta fəaliyyəti sahəsində görülmüş işlər haqqında danışıb.



Tədbirdə Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək müasir dövrdə muxtar respublikada sosial-iqtisadi inkişafın dinamikasına uyğun olaraq sığorta işinin də genişləndiyini bildirib. Belə ki, sığorta baş verən gözlənilməz hadisələrin vura biləcəyi zərərlərə qarşı hazırlıqlı olmağa şərait yaradır.

Baş direktor qeyd edib ki, muxtar respublikamızda sığorta işinin təkmilləşdirilməsi və müasir tələblərə uyğun şəkildə genişləndirilməsi işində 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə” keçirilən müşavirənin xüsusi əhəmiyyəti vardır. Belə ki, vətəndaşlar sığorta olunmaqla sığorta hadisələri baş verdiyi zaman sağlamlığa, daşınmaz əmlaka, avtomobillərə, kənd təsərrüfatı məhsullarına dəymiş maddi zərərlərə qarşı təminat alırlar. Bu da onların təhlükəsizlik təminatı baxımından çox əhəmiyyətlidir. Ölkəmizdə qüvvədə olan mövcud qanunlara əsasən vətəndaşlara və sahibkarlara məxsus daşınmaz əmlakın, avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari qaydada sığortalanması həyata keçirilir.

Bildirilib ki, gözlənilməz hadisələrə qarşı sığorta olunmaq və belə hallar baş verdikdə vətəndaşların onlara dəymiş zərərlərə görə sığorta ödənişləri almaq hüquqları qanunla təmin olunur.

Tədbirdə həyata keçirilən sığorta növləri üzrə Culfa rayonunda görülmüş işlər təhlil edilərək bildirilib ki, ötən müddətdə bu istiqamətdə müəyyən nəticələr əldə olunub. Belə ki, rayon üzrə cari ilin ilk 8 ayında, ümumilikdə, 4648 ədəd sığorta müqaviləsi bağlanılıb. Onlardan 1002-si avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, 2438-i isə daşınmaz əmlakın icbari sığortası üzrədir.

Nəzərə çatdırılıb ki, ölkəmizdə qüvvədə olan qanuna əsasən icbari qaydada sığorta olunmalı bütün obyektlərin sığortası təmin edilməlidir. Bu məqsədlə Culfa rayonunda vətəndaşlar arasında sığorta maarifləndirilməsi işlərinə diqqətin daha da artırılması zərurəti vurğulanıb. Könüllü sığorta növlərinin, o cümlədən kənd təsərrüfatının, ev əmlakının sığortası, fərdi qəza sığortasının əhəmiyyətinə toxunan baş direktor bildirib ki, bunlar da, son nəticədə, vətəndaşların yaşayış səviyyəsinin yüksəldilməsinə xidmət edir. Ona görə də könüllü sığortalar sahəsində aparılan maarifləndirmə və təşkilati işlər genişləndirilməlidir.

Tədbirdə Culfa Rayon Yanğın Təhlükəsizliyi İdarəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Nadir Təhməzbəyov, Culfa Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi qrupunun Baş Dövlət avtomobil müfəttişi, polis baş leytenantı Taleh Alışarov görülmüş işlər barəsində məlumat veriblər.

**Əli CABBAROV**

# Həm uşaqların, həm də böyüklərin istirahət mərkəzi "Əyləncə adası"nda bir gün

*Naxçıvan şəhərində yerləşən ən böyük, həm açıq, həm də qapalı hissələrdən ibarət əyləncə və istirahət mərkəzi "Əyləncə adası" qısa müddətdə – 2014-cü ildən fəaliyyət göstərməsinə baxmayaraq, əksəriyyətin sevimli məkanına çevrilib. Çünki burada yaş fərqindən asılı olmayaraq, hər kəs üçün istirahət etməyə şərait yaradılıb.*





Biz də günlərin birində "Əyləncə adası"ndan reportaj hazırlamaq qərarına gəlir və mərkəzə yollanırıq. Burada belə bir qənaətə gəlirik ki, təbiətin "əli" ilə yaranan adalardan fərqli olaraq Naxçıvançay vadisində insan əli ilə yaradılan bu "ada"da – şəhərin ən sakit və mənzərəli yerində günlərlə darıxmadan, həm də heç bir problem hiss etmədən istirahət etmək olar.

### Maraqlı istirahət guşələri, sərfəli qiymətə zövqoxşayan əyləncə

Söhbət edə-edə mərkəzin həyəti ilə bizi tanış edən "Cahan" Alış-Veriş Mərkəzi Məhdud Məsuliyyətli Cəmiyyətinin reklam işləri üzrə mütəxəssisi Elməddin Zehirov əyləncə və istirahət mərkəzinin, ümumilikdə, 38 min kvadratmetr ərazini əhatə etdiyini deyir. Şəhərimizin hər yerindən görünən 33 metr hündürlükdə 24 kabinəli 144 yerlik karuseli, 8 yerlik 120 dərəcəli yelləncəyi, 3 böyük attraksionu, uşaqlar üçün avadanlıqları – maşınlar, qatar və 4 idman qurğusunu, böyüklər üçün peyntbol oyun sahəsini bizə göstərir. Buradakı 1 fəvvarə və 4 hovuzu seyr edərkən düşünürəm ki, bunlar istirahətə gələnlərin rahatlığına xidmət etməklə yanaşı, həm də onların zövqlərini oxşayır. Gözəl dizaynla qurulan böyük səhnəyə çatanda isə Elməddin müəllim burada məşhur müğənnilərin konsertlərinin təşkil olunduğunu söyləyir. Onu da vurğulayır ki, konsert proqramlarına hazırlıq ərəfəsində şəhərimizin müxtəlif ərazilərində fəaliyyət göstərən "Banu" marketlərindən 50 manat dəyərində alış-veriş edən alıcılara hədiyyə kuponu verilir. Kupona sahib olan hər kəs həmin konsert proqramı çərçivəsində həm də hədiyyə qazanmaq şansı əldə edir. O, uduşa 20 manatdan 1500 manatadək dəyərdə 50-60 hədiyyə qoyulduğunu söyləyərək bu il 2 dəfə təşkil edilən konsert proqramının həm tamaşaçıların mənalı istirahətinə, həm də kupon sahiblərinin hədiyyələr qazanmasına səbəb olduğunu deyir.

Mərkəzin qapalı hissəsində xeyli sayda oyun və əyləncə vasitələri var. Buradakı çarpazlaşan və 3D maşınları həm gənclərin, həm də uşaqların ixtiyarındadır. Masaj stulları isə istirahətini burada təşkil etmək istəyənlərin ürəyincədir. Uşaqlara, həmçinin vertolyot, basketbol, dama oyunları da təklif edilir. Dama oyununu başa çatdıranlar hədiyyə də qazanırlar. "Top hovuzu" adlanan yerdə isə valideynlər uşaqlarını buradakı nəzarətçi-operatora etibar edib mərkəzdə fəaliyyət göstərən mağazalarda alış-veriş, kafelərdə istirahət edə bilərlər.





Burada istirahət etmək istəyənlər 2 manat dəyərində olan plastik kart alırlar. Karta yüklənən 5 manata 1, 10 manata 3, 20 manata 10, 30 manata 18, 50 manata 40, 100 manata isə 100 manat hədiyyə əlavə edilir. Bundan belə qənaətə gəlmək olur ki, müəyyən qədər ödəmələr aparmaqla qazanılan balans hesabına mərkəzdə növbəti bir neçə istirahət pulsuz başa gələ bilər.

Mərkəzdə attraksion və oyun vasitələrindən istifadə etmək üçün qiymətlər də sərfəlidir. Belə ki, qiymətlər 50 qəpiklə 2 manat arasında dəyişir.

Kassada karta vəsait yükləyən Bakı şəhər sakini İntiqam Əliyevlə söhbətləşirik. O deyir ki, əslən şərurluyam. Bir neçə ildir ki, Bakıda yaşayıram. Buraya qohumlarımı görməyə gəlmişdik, uşaqlarla gəzintiyə çıxdıq. Əlindəki kartı göstərərək onun burada yaşayan qohumlarına məxsus olduğunu bildirir: – Karta 20 manat yüklədim, 10 manat bonus qazandıq. Qiymətlərlə də maraqlandıq, çox sərfəlidir. Məkan da çox təmiz, səliqəli, gözəldir. Üstəlik də sərfəli qiymətlərlə sərfəli istirahət – bu, çox ürəkaçandır.

### Müasir və çeşidli mağazalar, gözoxşayan kafelər

Mərkəzin birinci mərtəbəsində fəaliyyət göstərən dünyanın tanınmış geyim firmalarının istehsalı olan məhsulların, ikinci mərtəbədə isə mebel dəstlərinin və digər məişət avadanlıqlarının satışının təşkili istirahətini alış-verişlə quranlar üçün buranı, sözün həqiqi mənasında, əvəzsiz məkana çevirir. Qapalı istirahət mərkəzi ilə geyim mağazası üzüzədir. Bura, xüsusilə də azyaşlı uşaqların olması səbəbindən tez-tez alış-veriş edə bilməyən valideynlər üçün daha sərfəlidir. Çünki uşaqlar hər hansı bir oyunla məşğulkən onlar mağazanın xidmətindən istifadə edə bilərlər.

İkinci mərtəbədəki mağaza ilə də tanış olmaq üçün liftlə yuxarı qalxırıq. Hər iki mərtəbədə oyun zalı, mağazalar olduğuna görə qələbəlikdir. Burada çoxçeşidli və müxtəlif qiymətlərə satılan məhsullar alıcıların imkanları çərçivəsində alış-veriş etmələrinə şərait yaradır.

Mərkəzdə "Lavazza" və "Mado" adlı kafelər də fəaliyyət göstərir ki, bu ünvanlara daha çox gənclər gəlir. Elməddin Zehirov deyir ki, hər iki kafedə gənclər doğum, məzun günlərini qeyd edirlər. Burada nişan mərasimləri, kiçik tədbirlər də tez-tez keçirilir. Maraqlı bir fakt isə odur ki, ümumilikdə, əyləncə və istirahət mərkəzinin cəlbedici və müasir görünüşünə görə əksər gənclər toyqabağı fotosessiyalar üçün də bu ünvanı seçirlər.

"Mado" kafesində hədiyyələr guşəsi də diqqətimizi cəlb edir. Bu satış-sərgidə muxtar respublikamızda istehsal olunan çaylar, hədiyyəlik məhsullar alıcılara təklif olunur.

"Mado"nun gözəl mənzərəli terrasında uşaqları ilə istirahət edən gənc xanımlara yaxınlaşırıq. Öyrənirik ki, onlar rəfiqədirlər. Naxçıvan şəhər sakini Aytən xanımın körpə qızı uşaq arabasında yatır. O deyir ki, buranın havası çox təmizdir. Yəqin ki, yaxınlıqdakı çay və saysız ağaclar sayəsində. Rəfiqəmlə buraya tez-tez çay, qəhvə içməyə gəlirik. Uşaqlar da yaxşı istirahət edirlər. Mərkəzdə, ilk növbədə, sanitar-gigiyenik təmizlik, qiymətlərin münasibliyi, ən əsası isə bütün fəsillərdə istirahət edə bilməyimiz hər zaman bu məkanı seçməyimizin başlıca səbəblərindəndir.

### "Əyləncə adası" – fərqli məkan…

Əyləncə mərkəzindəki peyntbol oyun sahəsində xeyli gəncin olduğunu müşahidə edirik. Onlara yaxınlaşırıq. Söhbət zamanı məlum olur ki, gənclərin ən çox baş çəkdiyi və əyləndiyi bu yerdə, demək olar ki, hər saat növbə olur. Növbədə gözləyən gənclərdən biri – Tunar deyir ki, o, öz dostları ilə birlikdə peyntbol meydançasında əylənməyə gəlib: – Biz tələbəyik, buraya gələndə məkanın həm xarici, həm də daxilindəki nəfis görüntülərinə əsasən düşünürdük ki, qiymətlər bizim cibimizə uyğun olmaz, yəqin, bahalıqdır. Lakin fikirləşdiyimiz kimi deyilmiş. Sevdiyimiz oyunu sərfəli qiymətə oynaya bildiyimiz üçün dostlarımla buraya tez-tez gələcəyik.

Üç nəvəsi ilə burada istirahət edən Naxçıvan şəhər sakini, təqaüdçü Məmməd Nəcəfov isə fikirlərini belə söyləyir: – Uşaqlarla ayda iki dəfə bu mərkəzə gəlirik. Təqaüdümü alan kimi nəvələrimin istirahət vəsaitini ayırıb, burada karta yükləyirəm. Karta əlavə olunan bonus onların növbəti istirahətinin pulsuz başa gəlməsinə səbəb olur. Onlarla birlikdə özüm də istirahət edirəm. Burada həm açıq, həm də qapalı şəraitdə oyun, əyləncə yerləri olduğundan payız-qış mövsümlərində də əlverişlidir. İllər öncə öz uşaqlarımın istirahəti üçün heç bir yer tapa bilmirdim. Onlar ancaq məhəllədə – tozun-torpağın içində oynayırdılar. Nəvələrimin belə gözəl, təmiz şəraitdə əyləndiklərinə görə bu şəraiti yaradanlara minnətdaram. Yəqin ki, buraya nəvələri ilə gələn bütün baba-nənələr də mənimlə həmfikir olarlar. Baxın, mağazalar, kafelər, attraksionlar, fəvvarə, hovuzlar… Adam bu məkanda özünü Avropadakı kimi hiss edir.

### Bu məkan istiqamətində əlavə avtobus marşrutları açılarsa…

Naxçıvan hava limanı yolu üstündə yerləşən məkana yaxın dayanacaqdan şəhər-aeroport istiqamətində işləyən 6 nömrəli avtobusun uzun fasilələrlə, 2 və 3 nömrəli avtobusların isə mərkəzdən xeyli aralı məsafədən keçmələri buraya gəlməkdə çətinlik yaradır. Nəzərə alaq ki, bu əyləncə və istirahət mərkəzinə çox yaxın məsafədə şəhərimizin ən böyük ticarət obyekti olan "Cahan" Alış-Veriş Mərkəzi də yerləşir. Mərkəzdə ərzaq, məişət əşyaları, tikinti materialları mağazaları fəaliyyət göstərir. Buradakı qiymətlər bazar qiymətləri ilə müqayisədə xeyli sərfəlidir. Ona görə də muxtar respublika sakinləri bu alış-veriş mərkəzinə daha çox üz tuturlar. Bu istiqamətdə yeni bir marşrutun açılması onların da ürəyincə olar.

**Mətanət MƏMMƏDOVA**

## Vətəndaşlara səyyar xidmətlərin göstərilməsi davam etdirilir

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin səyyar xidmət qrupu Şərur rayonunun Zeyvə kəndində olub. Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamənin daşınmaz əmlakın dövlət reyestrindən çıxarışla əvəz edilməsi üçün 1, torpağa mülkiyyət hüququna dair dövlət aktlarının daşınmaz əmlakın dövlət reyestrindən çıxarışla əvəz edilməsi üçün 7, məhdudiyyət və yüklülüyə dair arayışın verilməsi üçün 11, dublikat sənədin verilməsi üçün 1, torpaq sahəsinin plan-ölçüsünün verilməsi üçün 1, ümumilikdə, 21 vətəndaşın ərizəsi qəbul olunaraq məlumat bazası ilə dəqiqləşdirilib.

Rayonun Düdəngə, Oğlanqala, Aşağı Yaycı, Yengicə və Dizə kəndlərində də vətəndaşların səyyar xidmət qrupuna müraciətləri qəbul edilib. Sənədlər komitənin Şərur Rayon İdarəsi tərəfindən elektron sistemə daxil olunub. Texniki sənədlərin hazırlanması üçün müasir geodeziya-ölçü avadanlıqları vasitəsilə torpaq sahələrinin ölçüləri dəqiqləşdirilib.

Cari ilin ötən dövrü ərzində komitənin səyyar xidmət qrupu tərəfindən muxtar respublika üzrə 69 yaşayış məntəqəsində 564 vətəndaşın müraciəti qəbul edilib və müvafiq qaydada icra olunub. Mülkiyyət sənədləri hazırlanaraq qanunvericiliklə müəyyən edilmiş müddətdə vətəndaşlara çatdırılıb.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Qaliblər mükafatlandırılıblar

Naxçıvan Muxtar Respublika Stadionunda "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında "Naxçıvan"-"Şahbuz" komandaları arasında kross qaçışı üzrə yoldaşlıq görüşü keçirilib.



Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyası ilə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi görüşdə hər iki komandanın tərkibində, ümumilikdə, 50 atlet mübarizə aparıb.

Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov bildirib ki, bu yarışı keçirməkdə məqsəd gəncləri zərərli vərdişlərdən kənarlaşdırmaq və onları idmana cəlb etməkdir.

3 kilometr məsafədə keçirilən kross yarışının nəticələrinə əsasən oğlanlar arasında Əmrah Nağıyev, Səfər Tağıyev, İbrahim Cəfərzadə, Sərraf Kərimov, Coşqun Əliyev müvafiq olaraq ilk beş pillədə qərarlaşıblar. Qızların mübarizəsində isə Xatun Orucova qalib adını qazanıb. Gülayə Cəfərova, İlkanə Babayeva, Rəmidə Abdullayeva və Tamella Qurbanova digər yerlərə layiq görülüblər.

Qalib idmançılara diplom və hədiyyələr təqdim olunub.

## Tennis birinciliyi başa çatıb

Sədərək rayonunda keçirilən "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında stolüstü tennis üzrə rayon birinciliyinə yekun vurulub.

Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi, Uşaq-gənclər idman məktəbi və Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı Gənclər Birliyinin birgə təşkilatçılığı ilə ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilən birincilikdə 22 idmançı (12 qız və 10 oğlan) mübarizə aparıb.

Birincilikdə qaliblər və fərqlənən idmançılar təşkilatçıların diplomları ilə təltif olunublar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 689